**Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik**
AZ1108, Azərbaycan, Bakı şəhəri, İbrahimpaşa Dadaşov küçəsi, 260
Telefon : (+99412) 497-38-51   Faks : (+99412) 497-44-27
E-mail: **novbetchi@anama.gov.az**  Veb-sayt: **www.anama.gov.az**
https://www.facebook.com/anama.anama.180   https://twitter.com/ANAMA_gov_az

# 28 Avqust 2017-ci il tarixində Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi Üzrə Milli Agentlik (ANAMA) tərəfindən Xızı rayonunda aşkar olunmuş Partlamamış Hərbi Sursatlar (PHS) haqqında

# GÜNDƏLİK OPERATİV MƏLUMAT

Xızı rayonu ərazisində yerləşən Müdafiə Nazirliyin N saylı hərbi hissəsinin sursat anbarında baş vermiş partlayışla əlaqədar Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi Üzrə Milli Agentliyin (ANAMA), Fövqəladə Hallar Nazirliyinin və Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının birgə keçirdiyi təmizləmə əməliyyatları barədə:

29 Avqust 2017-ci il tarixində hərbi hissənin ətrafına, 6 yaşayış evinə, 2 ferma ərazisinə, əkin sahəsinə, otlaq sahəsinə, Məşədi Həsən kənd qəbirstanlığının yaxınlığına, su kanalına, istixananın yaxınlığına və telestudio ərazisinə baxış keçirilmiş, **83 ədəd partlamamış hərbi sursat** və 227 ədəd partlamış-yanmış sursat qalıqları aşkar olunaraq götürülmüş, nəticə etibarilə **3 680 615 kv.m əraziyə** yoxlanılmışdır.

Ümumiyyətlə, **3 gün ərzində 4 000 615 kv. m (400.06 ha) əraziyə baxış keçirilmiş, 119 ədəd partlamamış hərbi sursat** və 264 ədəd partlamış-yanmış sursat qalıqları aşkar olunaraq götürülmüşdür.

Bununla yanaşı, Xızı rayonun Giləzi qəsəbəsi, Stalçay və Şurabad kəndləri ərazisində 536 nəfər yerli sakin arasında mina təhlukəsizliyinə dair maarifləndirmə təbliğatı aparılmışdır.




ANAMA